Bytyn olkələrin proletarlarь, birləşin!

XIX IL DAVAMЬ

# Qommunist

Azərbajcan Q (b) P M və B Qomitələri, Azərbajcan MIQ və Bakь Soveti orqanь

«КОММУНИСТ»—орган ЦК и БК КП(б) Азербайджана, ЦИК АзССР и Бакосовета

JANVAR 20 PƏNÇŞƏNBƏ 1938-çi IL № 16 (5249)

QIJMƏTI 10 QƏPIK

# SSRI 1-çi caqьrьş Baş Sovetinin birinçi sessijasь

## Ittifaq Sovetinin və Millətlər Sovetinin 1938-çi il janvarьn 17-də birgə içlasь

## *Deputat Mirçəfər Baqьrovun nitqi*

Baş Sovetin deputatlarь joldaşlar! Mən, SSRI hokumətinə—başda Molotov joldaş olmaqla Xalq Qomissarlarь Sovetinə tam e'timad bildirmək haqqьnda Baş Sovet deputatь Zdanov joldaşьn təklifinə bytynlyklə tərəfdar cьxьram. (Alqьşlar). Mən, jeni hokumət hej'ətini—SSRI Xalq Qomissarlarь Soveti hej'ətini təsdiq ycyn Baş Sovetə təqdim etməji Molotov Vjaceslav Mixajlovic joldaşa tapşьrmaq haqqьnda deputat Zdanov joldaşьn təklifinə tərəfdaram.

Mən, Xalq Xariçi Işlər Qomissariatьnьn praqtiki işi haqqьnda deputat Zdanov joldaşьn tənqidi qejdlərinə də bytynlyklə qoşuluram. Biz, Baş Sovet deputatlarь, dynjada ən bojyk, ən qydrətli dovlətin interes və hyquqlarьnь, olkəmizin lajiq olduqu şəkildə mydafiə etməji Xalq Xariçi Işlər Qomissariatьndan tələb etməjə haqlьjьq. (Alqьşlar).

Mən, Xalq Su Transportu Qomissariatь haqqьnda Baş Sovet deputatь Zdanov joldaşьn tənqidi qejdlərilə şərikəm. Zdanov joldaş neft produqtlarьnьn daşьnmasь vəzijjətindən danьşdь. Biz neft ucastoqunda işləjirik və bizim seçicilərimiz—Azərbajçan neft sənajeinin staxanovcu işçiləri, inzener və texniqləri olkəmizi, sosializm sənajeimizi və sosializm kənd təsərryfatьmьzь duru janaçaxla tamamilə, arasь kəsilmədən tə'min etmək ycyn var qyvvələrini və sə'jlərini sərf edirlər. Əjər biz neft produqtlarьnь myvafiq məntəqələrə vaqtьnda və fasiləsiz catdьra bilmiriksə, bunun səbəbi, hokumətimizin bojyk fikir verməsinə baxmajaraq oz vəzifələrini jerinə jetirməjən Xalq Su Transportu Qomissariatьnьn pis işləməsidir.



SSRI Xalq Qomissarlarь Soveti janьnda Inçəsənət işləri qomitetinin rəhbərliji haqqьnda da Baş Sovet deputatь Zdanov joldaşьn tamamilə haqlь və dyzgyn tənqidinə qoşuluram. Inçəsənət işləri qomitetinin pis rəhbərliji jalnьz Leninqradda dejil, bizdə 11 myttəfiq respublikanьn biri olan Azərbajçanda da hiss edilir.

Mən bir xalq qomissariatь haqqьnda da bir neçə soz sojləmək istəjirəm. Baş Sovetin deputatlarь joldaşlar. dynjada ən demoqratik qonstitusija olan Stalin Qonstitusijasь olkəmizin vətəndaşlarьnьn cox bojyk hyquqlarьnь təsbit etmişdir. SSRI vətəndaşlarь hyquqlarьnьn qorunmasь olduqca bojyk əhəmijjətə malikdir. Ɵlkəmizin vətəndaşlarь oz mohkəm hyquqlarьnьn qorunmasьnь və revoljusion qanunculuqa çiddi riajət olunmasьnь əlaqədar orqanlardan tələb etməjə haqlьdьrlar.

Vətəndaşlarьmьzьn hyququnu qorumalь və revoljusion qanunculuqun keşijində durmalь olan Sovet dovləti orqanlarь içərisində Stalin Qonstitusijamьz xysusi jeri Xalq Ədlijə Qomissariatьna vermişdir. Stalin Qonstitusijasьnьn Fovqəl'adə VIII Ymum Ittifaq Sovetlər Qurultajь tərəfindən qəbul edildiji zamandan bir ildən artьx keçmişdir. Bu myddət, Xalq Ədlijə Qomissariatьnьn rəhbərlijini bytyn işlərini kokyndən, Qonstitusijaja myt abiq surətdə jenidən qurmaq ycyn tamamilə kafidir.

Lakin bizim əlimizdə, Qrьlenqo joldaşьn şəxsində Xalq Ədlijə Qomissariatь rəhbərlijinin bunun ohdəsindən gələ bilmədijini gostərən bir sьra faqtlar vardьr. Bunu sojləmək kifajət edər ki, xalq hakimlərinin vətəndaşlar qarşьsьnda hesabat verməlori kimi myhymm bir məsələ Xalq Ədlijə Qomissariatьnьn iştirakь olmadan keçmişdir. Qrьlenqo joldaş bu işə rəhbərliji tə'min edə bilməmişdir.

Stalin joldaş demişdir ki, hər şeji qadrlar həll edir. Qadrlarь baçarьxla seçmək, jetişdirmək, irəli çəkmək və hazьrlamaq, onlarьn ixtisasьnь artьrmaq—bytyn bunlar Xalq Ədlijə Qomissariatьnьn bilavasitə vəzifəsidir. Qrьlenqo joldaş bu məsələlərlə məşqul olmur.

Qrьlenqo joldaş Xalq Ədlijə Qomissariatьnьn məsələləri ilə başdansovdu məşqul olur. Xalq Ədlijə Qomissariatьna rəhbərlik bojyk təşəbbys və çiddi janaşьlmaqь tələb edir. Qrьlenqo joldaş keçmişdə vaqtьnьn cox hissəsini turizmə və alpinizmə sərf edirdisə, indi vaqtьnь şahmat qjununa sərf edir.

Mən olkəmizdə hər çyr sportun, o cymlədən həm turizmin, həm alpinizmin, həm şahmatьn maqsimum dərəçədə inkişaf etməsinə bojyk tərəfdaram. Lakin mən Xalq Ədlijə Qomissariatь kimi myhymm bir qomissariatьn rəhbərlik və işinin azaçьx da olsa zəjifləməsinə və Qrьlenqo joldaşьn, başьnda durduqu xalq qomissariatьnьn işinə bu çyr qejri-çiddi janaşmasьna şərik ola bilmərəm.

Biz hər halda bilmək istərdik: Qrьlenqo joldaşьn şəxsində biz kimi goryryk, alpinistimi, joxsa xalq ədlijə qomissarьnь? (Gylyşmə). Mən, Qrьlenqo joldaşьn ozyny daha cox kim hesab etdijini bilmirəm, hər halda, şybhəsiz ki, o, pis xalq ədlijə qomissarьdьr.

Mən əminəm ki, Molotov joldaş Xalq Qomissarlarь Sovetinin jeni hej'ətini Baş Sovetə təqdim edərkən bunu nəzərə alar.

Mən inanьram ki, Baş Sovet deputatlarь Xalq Qomissarlarь Sovetinin hej'ətini təsdiq edərkən, Stalin Qonstitusijamьzdan doqan bytyn tələbləri myvəffəqijjətlə həjata keçirməji tə'min edəçək Xalq Ədlijə Qomissariatь rəhbərlijinə tərəfdar cьxar. (Alqьşlar)